# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№043** **30 mart 2021-ci il**

**Dövlət Qış Otlaq fondunda olan torpaqların icarə haqqının müəyyənləşdirilməsi haqqında**

"Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.16.3 və 4.16.4-cü maddələrini, Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın Qərarını nəzərə alaraq, dövlət qış otlaq fondu torpaqlarından istifadənin səmərəliliyinin, eyni zamanda yerli büdcənin gəlirlərinin artırılması məqsədilə

**QƏRARA ALIRAM:**

1. Dövlət fondu qış otlağı torpaqlarının icarəyə verilmiş hər hektarına görə icarə haqqı 01 aprel 2021-ci il tarixdən 1 manat 20 qəpik müəyyən edilsin.
2. Tapşırılsın Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinə bu sərəncamın icrası ilə əlaqədar müvafiq icarə müqavilələrində dəyişiklik edilməsi təmin edilsin.
3. Sərəncamın icrasına nəzarət başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri M.Əkbərova tapşırılsın.
4. Sərəncamdan çıxarış aidiyyəti üzrə 4 saylı Ərazi Vergilər İdarəsinə və torpaq icarəçilərinə göndərilsin.

**Qobustan rayonu İcra hakimiyyətinin başçısı:** **A.M.Məmmədov**